**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Tikintisi dondurulmuş, tikintisinin normativ müddətləri ötmüş və tikintisi başa çatdırılmamış obyektlərin start qiymətlərinə tətbiq olunan əmsalların təsdiq edilməsi barədə" 1996-cı il 18 sentyabr tarixli 126 nömrəli, "Özəlləşdirilən dövlət müəssisələrinin (obyektlərinin) ilkin qiymətinə tətbiq edilən əmsalların təsdiq edilməsi barədə" 2001-ci il 24 yanvar tarixli 23 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları haqqında" 2001-ci il 2 fevral tarixli 32 nömrəli, "Nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunması Qaydaları"nın təsdiq edilməsi barədə" 2005-ci il 14 iyul tarixli 136 nömrəli və "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"nin təsdiq edilməsi haqqında" 2007-ci il 29 noyabr tarixli 191 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 18 sentyabr tarixli 126 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikintisi dondurulmuş, tikintisinin normativ müddətləri ötmüş və tikintisi başa çatdırılmamış obyektlərin start qiymətlərinə tətbiq edilən əmsallar"ın 1-ci, 2-ci və 3-cü hissələrində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 24 yanvar tarixli 23 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 1, maddə 72; 2007, 11, maddə 1190; 2008, 6, maddə 586, 10, maddə 937; 2009, 10, maddə 846; 2016, 10, maddə 1697) ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisələrinin (obyektlərinin) ilkin qiymətinə tətbiq edilən əmsallar"ın 4-cü hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 fevral tarixli 32 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 2, maddə 111; 2002, 8, maddə 545; 2005, 11, maddə 1076; 2006, 5, maddə 472; 2009, 10, maddə 846) ilə təsdiq edilmiş "Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bəndin birinci cümləsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra - Dövlət Xidməti)" sözləri ilə əvəz edilsin;

3.2. 2.3-cü bəndin on ikinci, on altıncı və iyirmi doqquzuncu abzaslarında, 2.4-cü bəndin birinci cümləsində ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 iyul tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 7, maddə 669, 11, maddə 1076; 2006, 1, maddə 59; 2007, 8, maddə 854; 2009, 10, maddə 846; 2015, 12, maddə 1591; 2021, 7, maddə 866) ilə təsdiq edilmiş "Nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissədə və 15-ci hissənin birinci abzasında birinci halda "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.2. 4-cü hissədə "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra – Dövlət Xidməti)" sözləri ilə əvəz edilsin;

4.3. 6-cı hissənin ikinci-altıncı, 8-ci hissənin birinci və ikinci abzaslarında, 9-cu hissədə, 10-cu hissənin birinci, 11-ci hissənin birinci və ikinci, 12-ci hissənin ikinci-dördüncü, 15-ci hissənin birinci (ikinci halda) və ikinci abzaslarında ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

5. "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 191 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 11, maddə 1189; 2008, 6, maddə 586, 10, maddə 937; 2009, 10, maddə 846; 2013, 11, maddə 1461; 2014, 10, maddə 1309; 2020, 8, maddə 1097) 3-cü hissəsində və həmin Qərarla təsdiq edilmiş "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"ndə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 mart 2022-ci il
117